# MÜASİR DÖVRDƏ KİTABÇILIQ İŞİ VƏ ONUN PROBLEMLƏRİ

*Orxan USUBALİYEV*
*AMEA - nın M. Füzuli adına Əlyazmalar İnstitutunun doktrantı*

***В современной ситуации книготорговая деятельности и ее проблемы***
***Резюме:****В статье освещается способы решения некоторых важных проблемы книное дело в условиях независимости. Здесь также рассмотривается издание, распространение, оформление и чтение книге на современном етапе. В статьерассмотривается также основные аспекты и взаимосвязи автор - книга - читатель.*

***In modern situation book selling activity and its problems***
***Abstract:****The ways of solution to some important problems of book publishing in independence are proposed in this article. The themes of book publishing, its desing, distribution and reading issues take the main analyses in this book. The main aspects of an author - book - reader interrelation are analyzed in this article.*

***Açar sözlər:*** *kitab, sənəd, informasiya, kitabçılıq işi, nəşr, çap, mətbəə*
***Ключевые слова:*** *книги, документы, информация, книготорговых бизнес, издательство, полиграфия, типографские*
***Keywords:*** *book, document, information, bookselling activity, publishing, printing, printing works*

Müasir dövrdə dünyanın bir sıra qabaqcıl ölkələrində, o cümlədən Azərbaycanda baş verən elmi - texniki yeniliklər, cəmiyyətdə informasiyaya yaranan tələbat məlumat daşıyıcısı kimi kitabın cəmiyyətdə rolunu və əhəmiyyətini daha da artırmışdır. Müasir cəmiyyətin ictimai - iqtisadi və mədəni həyatı kitabın inkişafında müəyyən dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir. Kitaba aid müxtəlif dəyişkənliyi öyrənmək məqsədilə ilk öncə kitabla bağlı, onun məzmun və forması ilə əlaqədar yaranan və inkişaf edən məsələlərə aydınlıq gətirmək, həmçinin kitabın quruluşunda, tipologiyasında baş verən, yaranan xüsusiyyətlərə diqqət yetirmək lazımdır. Bununla əlaqədar kitabçılıq işinin ən aktual və müasir problemlərinin müəyyənləşdirilməsi kitabşünaslıq elmi üçün olduqca vacib məsələdir.

Müasir dövrümüzdə kitabın nəşrinə nəzarət funksiyasını həyata keçirən nəşriyyat şuralarının mövcud olması vacib məsələdir. Belə ki, ölkəmizdə nəşriyyat şuraları yaradılarsa, onlar kitabın hazırlanmasına, planına, mövzusuna, quruluşuna, məzmun və formasına nəzarət funksiyasını yerinə yetirərlər. Müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən əksər nəşriyyat müəssisələrində nəzarət şuraları mövcud deyildir. Lakin Bakı Dövlət Universitetinin özünün Nəşriyyat Şurası mövcuddur. Nəşriyyat Şurası öz fəaliyyətində nəşr edilməsi vacib sayılan kitabların və çap məhsullarının buraxılmasına qərar verən mühüm - əhəmiyyətli funksiyanı həyata keçirir. Müasir dövrdə ölkəmizdə bir neçə dövlət tabeçiliyində

olan nəşriyyat müəssisələri var ki, onlarda Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan vahid quruma tabedirlər. Ancaq sosiallaşan ölkəmizdə bütün özəl və dövlət nəşriyyatları vahid quruma tabe olsa, nəşriyyat müəssisələrinin istiqamətləndirilməsi və fəaliyyətlərinin tənzimlənməsi effektiv olardı. Məsələn: Dünyanın qabaqcıl dövlətlərindən biri sayılan ABŞ - da Dövlət Departamentinin nəşriyyat sistemi vardır ki, bu qurum ölkədə mövcud olan bütün nəşriyyat müəssisələrinə nəzarət funksiyasını həyata keçirir. Nəşriyyat müəssisələrinin hər biri ümumilikdə dövlət tərəfindən nəzarətə götürülsə, nəşriyyat işi sistemində vahid istiqamət planlaşdırılar, əhəmiyyətsiz kitablar çapdan buraxılmaz. [4]

Müasir dövrdə nəşriyyat sisteminin idarə edilməsində qabaqcıl dünya ölkələrinin təcrübəsini tətbiq edilməsi mühüm - əhəmiyyətli məsələdir. Bu baxımdan, nəşriyyat işi sahəsində vacib elmi aspektlər nəzəri və təcrübi baxımdan öyrənilməli, mövcud problemlər müqayisəli şəkildə təhlil edilməlidir. İndiki şəraitdə kitabçılıq işi və nəşriyyat işi ilə bağlı daha dolğun və sanballı elmi - tədqiqat işlərinin yazılması çox zəruridir. Kitab və kitabçılıq işi ilə bağlı sistematik elm inkişaf etsə də, bu sahədə müasir istiqamətlərin araşdırılması daim aktual sayılmış və sayılmaqdadır. Müasir dövrdə ölkəmizdə 200 - dən artıq nəşriyyat müəssisəsi fəaliyyət göstərir. Bütün bu nəşriyyat müəssisələri ölkəmizin iqtisadiyyatının inkişafına və cəmiyyətimizin intellektual səviyyəsinin yüksəldilməsinə xidmət göstərirlər.

Müasir dövrdə kitabçılıq işi ilə bağlı əsas tələblərdən mühüm olanı odur ki, kitaba cəmiyyətimizdə geniş maraq yaradılmalı və bu sahədə geniş şəkildə maarifləndirmə tədbirləri həyata keçirilməlidir. Habelə, vətənpərvərlik mövzusunda kitablar çapdan buraxılmalı, milli ədəbiyyatın təbliğinə daha çox yer verilməli, oxucu ilə müəllif arasında təmas yaradılmalı, gənclərin ədiblərlə tez - tez görüşləri təşkil edilməli, televiziyalarda dəyirmi masa qurulmalı və kitabxanalarda mütəmmadi olaraq kitab sərgisi günləri keçirilməlidir. Müasir dövrdə kitabşünaslıq elmində əsas və daim aktual sayılan problemlərdən biri də kitab - oxucu məsələsi, mütaliənin zəif olmasıdır. Çünki indiki şəraitdə nəşriyyat müəssisələri mənfəət əldə etmək xatirinə, yüksək tirajla kitablar çapdan buraxırlar. Etiraf etmək lazımdır ki, nəşriyyat müəssisələrinin bir çoxu oxucuların tələbatına və istifadəsinə uyğun olan kitablar çapdan buraxmırlar. Buda təbii ki, nəşriyyat işinin gələcək inkişafına mənfi təsir göstərən haldır. Bu baxımdan, nəşriyyat müəssisələri özlərinin mənfəətlərin güdməklə bərabər, cəmiyyətin intellektual səviyyəsinin də yüksəldilməsinə xidmət etməli, oxucunun tələbatına və istifadəsinə uyğun olan kitablar çapdan buraxmalı, məzmun və forma baxımından məhdud olan kitablar işıq üzü görməməlidir. Aydındır ki, indiki şəraitdə kitab üçün lazım olan bütün əyani materiallar xarici ölkələrdən gətirilir. Mütləqdir ki, kitablar ofset çap üsulu ilə kütləvi şəkildə nəşr edilməlidir. Əgər ölkəmizdə dövlət və ya sahibkarlar tərəfindən kağız fabrikləri yaradılsa, çap məhsullarının tirajı çox olarsa, təbii ki, kitabın da qiyməti ucuz başa gələr.

Müasir dövrdə komputertexnalogiyası, internet şəbəkəsi nə qədər çox inkişaf etsə belə, heç bir yenilik kitabı əvzləyə bilməz. İndiki şəraitdə cəmiyyətimizdə informasiya yayan bir sıra texnoloji sistemlər və sosial şəbəkələr mövcuddur. Bunlar televiziya, internet, radio və bu kimi informasiya mənbələri yalnız informasiya axını və mübadiləsinin sürətləndirilməsinə və tez bir zaman kəsiyində istifadəçiyə çatdırılmasına xidmət edir. Ancaq unikal və heç bir zaman əhəmiyyətini itirməyən mənbə kimi kitabın istehsalı ildən - ilə artır, tirajı yüksəlir.



Həm Sovet hakimiyyəti illərində, həm də müasir dövrdə ölkəmizdə nəşriyyat işi sistemi dövrün tələblərinə uyğun şəkildə inkişaf etmişdir. Sovet hakimiyyəti illərində ölkəmizdə "Azərnəşr", "Şərq - Qərb", "Maarif", Neft Elmi - Texniki Ədəbiyyatı Nəşriyyatı, "Gənclik", "Yazıçı" kimi 10 - adək dövlət nəşriyyatları mövcud idi. Müasir dövrdə isə ölkəmizdə 400 - ədək nəşriyyat müəssisəsi qeydiyyatdan keçib və nəşriyyatlardan 100 - dən çoxu geniş şəkildə fəaliyyət göstərən özəl müəssisələrdir. 1998 - ci ildə mərhum ulu öndər Heydər Əliyev mətbuatda senzuranı ləğv etdikdən sonra çap işlərinə tam sərbəstlik verildi və nəşriyyat müəssisələrinin sayı xeyli artdı. Bu da təbii ki, ölkəmizin birbaşa dövlət siyasəti ilə əlaqədar idi. Habelə, ulu öndər Heydər Əliyevin sərəncamı ilə nəşriyyat müəssisələri, mətbəələr özəlləşdirildi və bu da bazar iqtisadiyyatı şəraitində nəşriyyatlar arasında azad, sağlam rəqabətin genişlənməsinə səbəb olmuşdur. Belə ki, senzuranın ləğvində əsas məqsəd tələb olunan dolğun məzmunlu kitab nəşrinin artırılması, nəşriyyat bazarında azad, sağlam rəqabətin qurulmasına nail olmaqdan ibarət idi. Təəssüflər olsun ki, ölkəmizdə bu hal hələ də tam bərqərar olmamışdır. Bu baxımdan, dövlətin nəşriyyat sisteminə nəzarət etməsi üçün uyğun sahədə vahid qurumun olması əsasdır. [6]

Müasir dövrdə ölkəmizdə mətbuatın fəaliyyətinə nəzarət edən Mətbuat Şurası olduğu kimi, nəşriyyat sisteminə də nəzarət həyata keçirən bu cür qurumun olması vacib şərtdir. Nə qədər ki, nəşriyyat sisteminə nəzarət həyata keçirən vahid dövlət qurumu yaradılmasa, nəşriyyat müəssisələrinin kitab çapdan buraxmasında hələ çox nöqsanlar meydana çıxacaqdır. Vacib haldır ki, nəşriyyat müəssisələrində yalnız nəşriyyat işini bilən, bacaran ixtisaslı kadrlar çalışmalıdır. Digər sahədə çalışıb, daha sonra nəşriyyat işini qurmağa çalışanlar bu sahənin inkişafına çətin ki, nail ola bilsinlər. Hələ 1991 - ci ildən BDU - da kitabşünaslıq, kitab nəşri, nəşriyyat işi və redaktəetmə ixtisası üzrə kadrlar hazırlanmağa başlanmışdır. Bu baxımdan, hər bir uyğun sahənin özünün ixtisaslı kadrları olmalıdır. İndiki şəraitdə nəşriyyat işi sahəsində məhz ixtisaslı kadrların az olması kitabların çapdan buraxılmasında bir çox səhvlərin meydana çıxmasına səbəb olur. [1]

Etiraf etmək lazımdır ki, müasir dövrdə az da olsa, həm məzmun, həm forma, həm də bədii tərtibatı baxımından bir xeyli dolğun kitablar çapdan buraxılır. Belə ki, nə qədər dolğun və nəfis tərtibatlı kitablar çox sayda çapdan buraxılarsa, cəmiyyətimizə hərtərəfli fayda olar və insanlarımızın intellektual səviyyəsi də xeyli dərəcədə artmış olar. Kitabçılıq işinin öz bazarı, öz iqtisadiyyatı vardır. Nəşriyyat işi gəlirli sahə olduğu qədər, çox maraqlı bir sistemdir. Əldə edilən gəlirlər əsasında nəşriyyat işini xeyli dərəcədə inkişaf etdirmək mümkündür. Bu baxımdan, nəşriyyat işi sahəsində nəticə etibarilə, özünümaliyyələşdirmə sistemi geniş şəkildə həyata keçirilə bilər. Məhz bütün bu

işləri həyata keçirmək və müasir istiqamətləri müəyyənləşdirib tədqiq etmək bizlər kimi sahə mütəxəssislərdən xeyli dərəcədə asılıdır. [2]

Nəzərə almaq lazımdır ki, kitabçılıq işi və mütaliə problemi əhatəli öyrənilməsi vacib olan bir sistemdir. Məhz bu sahəni ətraflı şəkildə öyrənib tədqiq etmək çox mühüm - əhəmiyyətli məsələdir. Bu baxımdan, kitabşünaslıq elminin hər bir sahəsini öyrənmək və geniş təhlillər aparmaq müasir dövrün əsas tələblərindəndir. [5]

Müasir dövrdə nəşriyyat müəssisələri öz fəaliyyətlərini müasir tələblər üzərində bərqərar etmək istəyirsə, vacib məqamdır ki, kitabın reklamını yüksək səviyyədə təşkil etsinlər. Bu baxımdan, kitabın reklamı oxucuda maraq oyadan olmalı, kitablar sorğular əsasında buraxılmalı, bu sahədə yüksək ixtisaslı kadrlar hazırlanmalı, kitabın bədii və poliqrafik tərtibatı yüksək səviyyədə həyata keçirilməlidir. Çünki müasir dövr tələb edir ki, hər bir cəmiyyət üzvünün zövqünə, tələbatına, bilik səviyyəsinə uyğun olan kitablar çapdan buraxılsın. Yaxşı kitab sözün əsl mənasında, insanı şəxsiyyət kimi formalaşdırır, cəmiyyət üzvlərinin intellektual səviyyəsinin yüksəldilməsində həlledici rol oynayır. Bu baxımdan, biliksiz kitab, kitabsız isə normal cəmiyyət mövcud ola bilməz. [3]

**Ədəbiyyat**

1. Allahverdiyev B. V. Kitab nəşri, problemlər, mülahizələr, təkliflər. - Bakı: "Dil və ədəbiyyat" Beynəlxalq elmi - nəzəri jurnal, 2006, № 3.səh 180 - 181.
2. Ələsgərova İ. "Kitabın bədii və texniki tərtibatı", - Bakı: Azərbaycan, 2010. - 184 s.
3. Azərbaycanda nəşriyyat işi. - Bakı: Yeni Nəsil, 2000. - 156s.
4. Umudlu İ. Kitab nəşri bu gün. - Bakı: Əbilov, Zeynalov və oğulları, 2004. - 321 s.
5. Тяпкин Б. Г. Аппарат произведения печати. - М.: Книга, 1977. - 124 с.
6. Книговедение: Энциклопедицескийсловаръ. - М.: Издателъство «Советская энциклопедия». 1982. - 663 с.